“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 04 (11) ✦ 30 aprel 2025-ci il

## Aprelin 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Balakən rayonunda yerləşən İtitala məscidində fəaliyyət göstərən din xadimləri ilə görüş keçirdi



Dövlət Komitəsinin sədri Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyəsi, dövlətin dini dəyərlərə, abidələrə qayğı və diqqəti barədə danışaraq, dini-etnik zəmində qlobal təhdidlərin səngimədiyi bir zamanda Azərbaycanın multikulturalizm məkanı kimi nümunəvi model təqdim etdiyini vurğulayıb. Ramin Məmmədov qeyd edib ki, ibadət evləri insanların ibadət və dua etmələrinə xidmət etməklə yanaşı, cəmiyyətin öz dini biliklərini dərinləşdirməsinə şərait yaradır. Bu baxımdan, milli-mənəvi və dini dəyərlərimizin təbliğ edilməsində, dinin düzgün formada ictimaiyyətə çatdırılmasında din xadimlərinin üzərinə böyük məsuliyyət düşür.

Din xadimləri dövlətimizin milli-mənəvi irsimizlə yanaşı, bəşəri dəyərlərə sahib çıxmasının önəmli olduğunu vurğulayaraq, ölkəmizdə dini ibadət yerlərinin təmir və bərpasının diqqətdə saxlanılmasını, icmaların fəaliyyətinə dəstəyin göstərilməsini yüksək qiy mətləndirdiklərini bildiriblər.

Tədbirdə Balakən RİH Başçısı İslam Rzayev, kənd sakinləri və digər qonaqlar iştirak etdi.

**Yeni Balakən**



## Zərifə Əliyevanın 102 illiyi münasibətilə Balakəndə bir sıra tədbirlər keçirildi

Zərifə Əliyeva 28 aprel 1923-cü ildə həkim Əziz Əliyev və Leyla Əliyevanın ailəsində dünyaya göz açmışdır. Həkimlər Tamerlan Əliyev, Cəmil Əliyevin və musiqiçi Gülarə Əliyevanın bacısı olan Zərifə xanım 1932-1942-ci illərdə orta məktəbdə təhsil almışdır. 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. 1949-1950-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, 1982-1985-ci illərdə görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır.

8 noyabr 1954-cü ildə Heydər Əliyev ilə ailə qurmuş, 1955-ci il 18 oktyabr Sevil Əliyeva, 1961-ci il 24 dekabr İlham Əliyev dünyaya gəlmişdir. 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

Zərifə Əliyevanın 102 illiyi münasibətilə Balakəndə bir sıra tədbirlər keçirildi. Mədəniyyət Mərkəzinin zalında keçirilən ümumrayon tədbirində Zərifə xanım Əliyevanın həyatından, fəaliyyətindən, xidmətlərindən danışıldı, onun həyat və yaradıcılığından bəhs edən film izlənildi. Başlanğıcda iştirakçılar Zərifə Əliyevanın müxtəlif dövrlərdə çəkilmiş şəkillərindən ibarət foto sərgiyə baxdılar..

Növbəti tədbir yenə mədəniyyət mərkəzində "Nurlu ömrün işığı" adlı tədbir idi. Azərbaycanın görkəmli alimi, oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan akademik Zərifə xanım Əliyevanın anadan olmasının 102 illiyi ilə əlaqədar "Nurlu ömrün işığı" başlığı altında ədəbi-bədii kompozisiyada Zərifə xanım Əliyevanın elmi fəaliyyətindən, humanist şəxsiyyətindən və ölkəmizin səhiyyə sahəsində göstərdiyi əvəzsiz xidmətlərdən bəhs olunub, onun həyat və yaradıcılığını əks etdirən şeirlər səsləndirilib, musiqilər ifa edilib, rəqslər nümayiş olunub.

Daha bir tədbir Balakən Rayon Mərkəzi Xəstəxanasında görkəmli oftalmoloq alim Zərifə Əliyevanın anadan olmasının 102-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Balakən Rayon Mərkəzi Xəstəxanasının direktoru Dilbər Quliyeva çıxış edib və Zərifə Əliyevanın oftalmologiya sahəsindəki böyük elmi töhfələrini xatırladıb. O, Zərifə Əliyevanın Azərbaycanda göz xəstəliklərinin müalicəsi və bu sahədə elmi tədqiqatların inkişafında mühüm rol oynadığını qeyd edib.



Eyni zamanda, Balakən RMX-in həkim oftalmoloqu Şahidə Məmmədova da tədbirdə iştirak edib. Şahidə Məmmədova öz çıxışında oftalmologiya elminə verdiyi töhfələri və bu sahədəki fəaliyyətini vurğulayıb. O, həmçinin, Zərifə Əliyevanın həyat və fəaliyyətinin öz işinə ilham verdiyini, onun peşəkarlığından və insanpərvərliyindən nümunə götürdüyünü bildirib.

Bu tədbir, həm Zərifə Əliyevanın xatirəsini yad etmək, həm də oftalmologiya sahəsindəki inkişafları və elmi irsi təbliğ etmək məqsədini daşıyıb.

**Yeni Balakən**







# Bir zamanlar Balakənin ən peşəkar səhiyyə ocağı olmuş Qabaxçöl xəstəxanası







Bir zamanlar (1990-2010-cu illər) Balakənin ən peşəkar xəstəxanalarından olan Qabaxçöl qəsəbə xəstəxanasında həyat vardı. Sözün əsl mənasında bir sıra sahələrdə çox yüksək tibbi xidmət göstərilir, o cümlədən cərrahiyə şöbəsinə, doktor cərrah Herayevin qəbuluna, əməliyyat olunmaq üçün nəinki Balakəndən, qonşu rayonlardan, hətta Gürcüstan Respublikasından da xəstələr gəlirdi. Bir gündə 14-15 cərrahi əməliyyat həyata keçirilirdi. Sonralar baxımsızlıqdan, təmir üçün yetərli vəsait ayrılmadığından xəstəxana, özəlliklə o məhşur cərrahiyə şöbəsi və digər yerlər uçub tökülməyə, dağılmağa başladı. Bu haqda rəsmi səviyyədə çox müraciətlər olunub Səhiyyə Nazirliyinə, hətta millət vəkili Nəsib müəllim Qabaxçöl qəsəbə xəstəxanasının bərbad vəziyyətini əks etdirən foto albom hazırladaraq nüsxələrini Səhiyyə, Maliyyə, İqtisadi İnkşaf Nazirliklərinə, Baş Nazirə təqdim edərək müraciət etmişdi. O müraciətdən sonra işə başlanılmış, ilkin olaraq yeni xəstəxananın layihəsi üçün vəsait ayrılmış, mütəxəssislər yerlə tanış olmaq üçün Balakəndə, Qabaxçöl qəsəbəsində olmuşlar. Sonra II Qarabağ Müharibəsi başladı, bu işlər dayandı. O dayanan hələ dayanıb amma ümid var.

Balakən RMX-nın Publik Hüquqi Şəxsi, direktor Dilbər xanım Quliyeva aidiyyatı təşkilatlara İTS, TƏBİB, Səhiyyə Nazirliyinə müraciət edərək mövcud vəziyyəti, tələbatı, çətinliyi və real imkanları onlarla məsləhətləşərək, razılaşdıraraq Qabaxçöl xəstəxanasına bir həyat nişanəsi, ilk olaraq iki sahə üzrə xidmət gətirdi. Beləliklə rayonun Qabaqcöl qəsəbə xəstəxanasında ASM-də qan alma və ginekoloji müayinə xidmətlərinə start verilib.

Bu münasibətlə Qabaxçöl qəsəbə xəstəxanasında tədbir keçirildi. Tədbirdə Balakən rayon mərkəzi xəstəxanasının direktoru Dilbər Quliyeva, xəstəxananın İSX şöbə müdiri Cənnət Mustafayeva, xəstə xidmətləri şöbə müdiri Zülfira Ömərova, ASM mama-ginekoloqu Lalə Tinayeva, həkim laborant Aksana Ramazanova və tibb bacıları iştirak edib.

Qəsəbənin uzaqlığını nəzərə alaraq, TƏBİB-in belə şərait yaratması yerli əhaliyə həkim xidmətlərinə daha asan çatma imkanı təmin edir.

Tədbir, əhali arasında sağlamlıq problemlərinin erkən diaqnozunu qoymaq və müalicə proseslərini daha effektiv şəkildə həyata keçirmək məqsədini güdür. Bu addım, yerli sakinlərin sağlamlıq vəziyyətlərini izləmələri və vaxtında müalicə alma imkanlarını artıracaq.Bununla yanaşı vətəndaş bəzi xərclərinə qənaət edəcək, eyni zamanda Balakən RMX-da sıxlığı azaldacaq. Ağılla görülən işlər hər zaman gözəldir.

**Yeni Balakən**

# Qarşıdan 9 May Faşizm üzərində Qələbənin 80 illiyi gəlir





Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov Balakəndə 1941-45 Böyük Vətən Müharibəsinin, zonada yeganə sağ qalan,101 yaşlı veteran olan İosif Pavloviç Perekrestovu ziyarət etdi. Görüşdə Balakən RİH-in başçısı İslam Rzayev, SHXÇDX Balakən şöbəsinin rəisi polkovnik Ramil İsmayılov və əməkdaşları, Veteranlar təşkilatının Balakən şöbəsinin sədri Abid Mamedov iştirak etdilər. 101 yaşlı veterana Faşizm üzərində Qələbənin 80 illiyinə təsis edilmiş medal, pul mükafatı və digər hədiyyələr təqdim edildi. Eşitməsində problemi olsa da cavablamasında sərrast və dəqiq idi veteranımız.

Qarşıdan 9 May Faşizm üzərində Qələbənin 80 illiyi gəlir. Umarız ki, Qəbələ-Balakən zonasının yeganə təmsilçisi, o arıqlamış, kiçilmiş bədəniylə bu günlərə canlı gətirdiyi tarixin daşıyıcısı, özü də o tarixin əmanəti, yadigarı olan II Dünya Müharibəsinin Balakənli veteranı İosif Pavloviç Perekrestovla yetərincə maraqlanar, gərəkən diqqət və qayğı göstərilər.

**Ramazan Abal**

# UŞAQ İNCƏSƏNƏT FESTİVALI: BALAKƏNDƏ BİRİNCİ MƏRHƏLƏYƏ START VERİLDİ



Mədəniyyət, Elm və Təhsil nazirliklərinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığilə keçirilən Uşaq İncəsənət Festivalının birinci mərhələsi üzrə seçimlər Balakən rayonunda da davam edir.

Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin Balakən rayonu üzrə nümayəndəliyinin bildirdiyinə görə festivalın birinci mərhələsində iştirak etmək üçün rayon üzrə ümumilikdə 174 nəfər qeydiyyatdan keçib. Seçim turları Uşaq İncəsənət Məktəbində təşkil olunub. Festivalın seçim mərhələsinin ilk üç günündə 56 iştirakçı müxtəlif nominasiyalar üzrə istedadını nümayiş etdirib. Növbəti günlərdə milli rəqs, klassik simli alətlər, xalq çalğı alətləri, piano, qarmon ifaçılığı və digər nominasiyalar üzrə seçimlər olacaq.

Festivalın Balakən rayonu üzrə seçim mərhələsi davam edir...

**Yeni Balakən**

# Balakən Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın növbəti iclası keçirildi







Balakən RİH-in başçısı İslam Rzayevin sədrliyi ilə keçirilən iclasda Şura üzvləri, aidiyyəti üzrə məsul şəxslər, bələdiyyə sədrləri və xidmət təşkilatlarının rəhbərləri iştirak ediblər.

Rayon rəhbəri Prezident İlham Əliyevin respublikamızın tərəqqisi və xalqımızın əmin-əmanlığı naminə yürütdüyü uğurlu daxili və xarici siyasətdən, ölkəmizin hərbi qüdrətindən, ictimai-siyasi sabitliyindən, dinamik sosial-iqtisadi inkişafından söz açıb. İcra başçısı qarşıda duran vəzifələrdən danışıb, iclasın gündəliyində duran məsələləri diqqətə çatdırıb.

Şura iclasında RİHB-nin inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin bələdiyyələrlə birgə fəaliyyəti, kənd təsərrüfatı, o cümlədən baramaçılığın inkişafı sahəsində qarşıda duran vəzifələr, rayonda təhsil və təlimin keyfiyyətinin yüksəldilməsi ilə bağlı görülmüş işlər müzakirə olunub.

Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Məhəmməd Şərifov rayonda kənd təsərrüfatı, o cümlədən baramaçılığın inkişafı sahəsində görülmüş işlər barədə məlumat verib. Bildirib ki, barama istehsalçıları, tədarükçüləri və emal müəssisələri arasında kooperasiyanın dəstəklənməsi, həmçinin barama istehsalı və emalına yerli və xarici investisiyaların cəlb edilməsi istiqamətində tədbirlər həyata keçirilir.

İcra başçısı İslam Rzayev Balakən rayonunda ilbəil təhsilin keyfiyyətinin yüksəldiyini, hər il yeni uğurlar və nailiyyətlərin əldə edildiyini bildirib. Qeyd olunub ki, rayon ümumtəhsil məktəblərinin şagirdləri respublika fənn olimpiadalarında, "Sabahın alimləri" respublika müsabiqəsində, buraxılış və qəbul imtahanlarında yüksək nəticələr qazanıblar. Şəki-Zaqatala Regional Təhsil İdarəsinin tabeliyindəki rayon təhsil sektorlarının buraxılış imtahanı nəticələrinə əsasən formalaşmış reytinq siyahısında Balakən rayonu IX və XI siniflər üzrə müvafiq olaraq üçüncü və ikinci yerdə qərarlaşıb. 2023/2024-cü tədris ilində ali məktəblərə qəbul imtahanlarında 25 nəfər 500-dən, 12 nəfər isə 600 baldan yuxarı nəticə göstərib. Tədris ilinin yekunlarına görə 1 nəfər məzun qızıl nişana layiq görülüb. Eyni zamanda tam orta təhsil səviyyəsi üzrə 36 nəfər, ümumi orta təhsil səviyyəsi üzrə 27 nəfər fərqlənmə attestatı alıb.

Rayon rəhbəri vurğulayıb ki, bu uğurların əldə edilməsində rayonun təhsil sektoru tərəfindən həyata keçirilən tədbirlərin və məqsədyönlü fəaliyyətin mühüm əhəmiyyəti vardır. Son bir ildə rayonda təhsil sahəsində uğurların əldə edildiyi, təlimin keyfiyyətinin yüksəldilməsi üçün əməli tədbirlərin görüldüyü, qanunvericiliyin tələbləri əsas tutularaq iş fəaliyyətinin həyata keçirildiyi nəzərə alınaraq rayon üzrə təhsil sektorunun müdiri Mirzəyeva Mehparə Ramazan qızı Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif edilib.

Həmçinin məsələlərə dair ətraflı müzakirələr aparılaraq Şuranın müvafiq qərarları qəbul olunub, aidiyyəti üzrə məsul şəxslərə tövsiyə və tapşırıqlar verilib.

**Yeni Balakən**

# 8-ci sinif şagirdləri həkim və müəllimlərin iştirakı ilə "Qanın tərkibi və funksiyaları" mövzusunda biologiyadan laboratoriya praktikasında





Bir çox nəzəri bilikləri tam şəkildə almaq,qavramaq üçün praktikaya ehtiyac vardır. Bu həm həyatda belədir, həm də məktəbdə tədris olunan dərs fənlərində.

Aprelin 24-ü oxuduğum Nizami Gəncəvi adına şəhər 1 saylı tam orta məktəbin $8^b$ və $8^v$ rus sinfinin şagirləri rayonumuzda fəaliyyət göstərən "UĞUR" klinikasında olduq. Biologiya müəlliməmiz Gülnarə müəllimə bizə praktik dərs üçün gətirdiyi "Uğur"-un laboratoriyasında "Qanın tərkibi və funksiyaları" mövzusunda klinikanın təsisçisi Xanım doktor və laborant-həkim Aksana xanımla birgə geniş, maraqlı, praktik dərs keçdi. Dərsdə ilk öncə laboratoriya və laborator şərait haqda məlumatdırılaraq laboratoriya ilə tanış olduq. Sonra Aksana xanım qan nümunələrinin alınmasından, alınan nümunələrin sahiblərinin adına barkodlanmasından, necə analiz edilərək nəticələrin qeyd olunmasınadək gedən prosesləri anlatdı. Laboratoriyanın olmazsa-olma ı olan mikroskop hamımızın ortaq marağı idi. Hər birimiz mikroskop altında qan nümunəsini incələmək üçün səbirsizliklə bu sehirli cihazza baxırdıq. Xanım doktor bizə qanın tərkibi barədə geniş, ətraflı məlumat verdikdən sonra bayaqdan səbirsizliklə gözlədiyimiz anı başlatdı. Bizi bir-bir mikroskopa, qan nümunəsinə mikroskopdan baxmağa dəvət edərək mikroskop altında gördüklərimizi izah etdi.

Mikroskopik görüntülər məni sehirləmişdi, ilk dəfə idi qan hüceyrələrini, tərkibini canlı görürdüm, baxmayaraq ki, bu haqda çox oxumuşdum.

Bu praktik, canlı dərs sayəsində qanın tərkibi və funksiyaları mövzusunu tam qavramaqla bərabər mövzuyla əlaqəli amma əhatəsini aşan biliklərə də yiyələndik. Laboratoriyanın necə işlədiyini, laborator şəraitin necə olduğunu, qan nümunələrinin necə alındığını, çeşitləndiyini, laborator xidmətin önəmini və sairəni buna misal göstərmək olar. Əminəm ki, bu praktik dərsi heç bir zaman unutmayacağıq. Bizə bu şəraiti, imkanı yaratdıqlarına, qiymətli vaxtlarını ayırdıqlarına görə "UĞUR" klinikasına, onun rəhbəri Xanım doktora, həkim-laborant Aksana xanıma və sevimli biologiya müəlliməmiz Gülnarə müəlliməyə təşəkkür edirk.

**A.Nürəddin**
**$8^b$ rus sinfinin şagirdi, sinif əlaçısı.**

# Balakəndə "Səhnədə rəqs bayramı" adlı rəqs müsabiqəsi keçirildi







29 aprel 2025-ci il tarixində Balakən rayon Mədəniyyət Mərkəzi və MİHİ Balakən rayon Komitəsinin birgə təşkilatçılığı ilə 29 Aprel - Beynəlxalq Rəqs Günü münasibətilə "Səhnədə rəqs bayramı" adlı rəqs müsabiqəsi təşkil olunub.

3 nominasiya üzrə keçirilən müsabiqədə ümumilikdə 92 nəfər yeniyetmə və gənc iştirak edib. İştirakçılar rəngarəng və peşəkar çıxışları ilə tamaşaçılara unudulmaz anlar yaşadıblar.

Müsabiqənin münsiflər heyətində 2 saylı şəhər Diyarşünaslıq klubunun müdiri Bağırova Nəzakət, Qabaqçöl qəsəbə Folklor klubunun müdiri Çukayeva Mehriban və sabiq mədəniyyət işçisi, xoreoqrafiya müəllimməsi Atayeva Veronika yer alıblar.

Müsabiqənin sonunda bütün iştirakçılar həvəsləndirici diplomlarla təltif olunub. I, II və III yerlərin qaliblərinə isə kubok, medal və diplom təqdim edilib. Tədbir tamaşaçılar tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb.

**Zöhrə Bekayeva**





# Hər il aprelin 15-i Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur

Bu tarix 1935-ci il aprelin 15-də Vaşinqtonda "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" imzalanmış müqavilə ilə əlaqədardır. Bu gün beynəlxalq hüquq təcrübəsində Rerix paktı kimi də tanınır. O vaxtdan etibarən dünyanın bir çox ölkəsində 15 aprel - Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur.

Bu gün Balakəndə Beynəlxalq Mədəniyyət Günü qeyd olundu. Bu münasibətlə Balakən Mədəniyyət Mərkəzində tədbir keçirildi. Tədbir bir növ mədəniyyət işçilərinin özlərinə hədiyyəsi idi. Yerli mədəniyyət müəssisələrinin ifaları, çıxışları özəl, həm də çox gözəl idi. Çıxışlar, təbriklər, mahnılar, rəqslər, şeirlər, kiçik səhnəciklər alqışlarla qarşılandı. Balakən mədəniyyəti hər zaman alqışlanıb və gün də özünü göstərir. Unutmayaq ki, Qarabağ işğaldan azad olunanda Şuşada keçirilən



"Xarı Bülbül" festivalında Azərbaycan üzrə cəmi altı folklor qrupu iştirak edirdi və bunun ikisi Balakən mədəniyyət sahəsinin "Cahan" və "Nənələr" qrupuydu.

Bütün Türk dünyasının, Azərbaycanımızın mədəniyyət işçilərini 15 Aprel-Beynəlxalq Mədəniyyət Günü münasibətilə təbrik edirk.

**Yeni Balakən**

# Qələbəni Reystaqda qarşılayan həmvətinimiz

Tərəqqipərvər bəşəriyyət Böyük Vətən Müharibəsində alman faşizmi üzərində qələbənin 80 illiyini qeyd edir. Bu tarixi qələbənin qazanılmasına 416-cı Taqanrok Diviziyası sıralarında mərdliklə vuruşan Azərbaycan oğullarının da öz payı vardır. Belə oğullardan biri də qələbəni, Berlinin Brandenburq Darvazasında-Reyxstaqın girişində qarşılayan həmyerlimiz Umaxan Xəlilovdur.

Xəlilov Umaxan Abaas oglu 14 aprel 1924-cü ildə Qabaqcöl kəndində anadan olub. Qabaqçöl orta məktəbində oxuyub. O dövrdə məktəb Azərbaycan-avar məktəbi adlanırdı. O təhsilini davam etdirməklə yanaşı atasının sədr olduğu "Yeni Həyat" kolxozunda da çalışırdı. Uşaqlıqdan xirurq olma arzusu ilə yaşayırdı.

1942-ci ildə, doğum günündə, hələ məktəbi bitirməyə 2 ay qalmış orduya cağrılır. Hərbi xidmətini Orcenekidze şəhərində, 90-cı atıcı divizyasında başlayır.1943-cü ilin fevralında 416-cı Taqanrok divizyasına köcürülür və tibbi təlimatcı kimi çalışır.

Cəbhədə yaralıları xilas etmək üçün göstərdiyi misilsiz şücaətinə görə komandanlıq ona xüsusi rəğbət bəsləyirdi. Umaxan Sovet Ittifaqı Marşalı Zukovla üç dəfə görüşmüşdü. Marşal ilk dəfə gələndə yaralıları yoluxur, Umaxandan adını, milliyətini soruşur. Sonra "avarets-avarets" deyə təkrar edərək əlavə edir: "Qocaq, mərd insanlardır. Şamil nəsli, güdrətli nəsildir. Şeyx Şamil özü tarixin ən böyük və istedadlı sərkərdəsi idi". Marşal Zukov ayağının yarasını Umaxana baglatdırar, ona "Malenkiy doktor" deyərdi.

Mozdokdan, Melitopdan Berlinə qədər uzun döyüş yolu keçən Umaxan Xəlilov Ukraynanın, Avstriyanın, Polşanın azad edilməsində iştirak edir. Qələbəni mayın 2-də Berlinin Brandenburg Darvazasında, Reyxstaqın girişində qarşılayır. 1945-47 ci illərdə Berlinin bərpasında iştirak edir.

Döyüşlərdə dəfələrlə yaralanmış, bədənində qəlpələr qalmışdı.

İkinci dərəcəli müharibə əlili idi.

U.Xəlilov böyük Vətən müharibəsində qöstərdiyi iqidliyə qörə 1-ci dərəcəli "Vətən müharibəsi, "Qızıl Ulduz" ordenləri və çoxsay medallarla təltif olunmuşdur. O, 9 may qələbənin ildönümü qeyd etmək üçün dəfələrlə Berlinə dəvət alırdı. Haqqında "Oqonyok",



Leninskiy luç" jurnallarında, "Bakı" "Kommunist" "Şən həyat" qəzetlərində geniş yazılar dərc olunmuşdur.

Qeyd edək ki, U.Xəlilov hərbi xidmətdən qayıdandan sonra yarımçıq qalan 10-cu sinifi bitirərək ADTU-nin cərrahiyə fakültəsinə daxil olur. İnstitutda ona "starik" deyirdilər. İnstitutu bitirdikdən sonraq Bakıda işə başlayır. Tələbə ikən dahi Üzeyir bəy Hacıbəyovla görüşürdü, qohumluq əlaqəsi vardı.

Umaxan həkim 1954-cü ildən doğma Qabaxçöl xəstəxanasında cərrah kimi çalışır.1959-67-ci illərdə həmin xəstəxananın baş həkimi, sonra cərrahiyə şöbəsinin müdiri işləyir. O, bacarıqlı cərrah olmaqla bərabər, müharibə veteranı və bir ziyalı kimi yaşadığı bölgənin ictimai-siyasi həyatında fəal iştirak edirdi. Xəstəxananın yeni binasının tikintisində təşəbbüs qaldırmış, tikintiyə şəxsən rəhbərlik etmişdi.

Umaxan həkim dörd övlad atası və gözəl ailə başçısı idi. Övladlarının hamısı: Tamara, Şələbiyə, Nərgiz və Nüşabə həkimdir.

Mənalı ömrünü Vətənin və Xalqın xidmətinə həsr etmiş Umaxan Abbas oğlu Xəlilov 1993-cü il dekabrın 2-də vəfat etmişdir. Ruhu şad olsun.

**Xutra Ramazan**

# 2025-ci ilin yanvar-mart aylarında Balakən rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

**Ümumi məhsul buraxılışının həcmi** 2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə 2025-ci ilin yanvar-mart aylarında ilkin hesablamalara görə 7,6 faiz azalaraq 65046,2 min manat təşkil etmişdir. Məhsul buraxılışının 33,7 faizi sənaye, 0,5 faizi tikinti, 21,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,6 faizi informasiya və rabitə, 40,4 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-mart aylarında 21910,0 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23,7 faiz az sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 83,5 faizi emal sektorunda, 15,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda və 1,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 aprel 2025-ci il vəziyyətinə 505,0 min manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatında** 2025-ci ilin yanvar-mart aylarında diri çəkidə 1101,8 ton ət, 5648,4 ton süd və 2807,0 min ədəd yumurta istehsal olunmuşdur. 2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə ət istehsalı 0,4 faiz, süd istehsalı 0,8 faiz, yumurta istehsalı 2,4 faiz artmışdır.

2025-ci il aprelin 1-i vəziyyətinə 37130 baş qoyun və keçi, 27301 baş iribuynuzlu mal-qara, o cümlədən 12962 baş inək və camış mövcud olmuşdur.

2025-ci ilin yanvar-mart aylarında kənd təsərrüfatının ümumi məhsulu 13978,3 min manat olmaqla əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz artmışdır.

2025-ci ilin yanvar-mart aylarında 2605,4 min manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,3 dəfə çox investisiya yönəldilmişdir.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ilin yanvar-mart aylarında 205,0 min ton yük və 1810,0 min sərnişin daşınmışdır. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 5,7 faiz, sərnişin daşınması isə 4,9 faiz artmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən 2025-ci ilin yanvar-mart aylarında 1025,2 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 90,7 faiz çox xidmət göstərilmişdir.

2025-ci ilin yanvar-mart aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 82174,9 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 18236,6 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 0,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,8 faiz artmış, ticarət şəbəkəsində 54043,7 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 28131,2 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2025-ci ilin yanvar-fevral aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2024-cü ilin müvafiq dövrünə nisbətən 4,8 faiz artaraq 595,4 manat təşkil etmişdir.

2025-ci ilin yanvar-mart aylarında əhalinin sayı 25 nəfər və ya 0,02 faiz artaraq 2025-ci il aprel ayının 1-i vəziyyətinə 101044 nəfərə çatmışdır.

**Əsəbəli Alqayev**
**Balakən Rayon Statistika İdarəsinin rəis müavini**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
www.yenibalaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100